Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 176 (8199) CÜMƏ AXŞAMI, 15 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Xoşməramlı missiya

## Birinci vitse-prezident Mehriban Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti Azərbaycanın dünya dövlətləri ilə etibarlı və strateji tərəfdaşlığına mühüm töhfələr verir

Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dünya maddi-mədəni irsinə verdiyi töhfələr, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafındakı xidmətləri növbəti dəfə beynəlxalq səviyyədə yüksək qiymətə layiq görüldü.

Rusiya Prezidenti Vladimir Putinin fərmanı ilə Mehriban xanım Əliyeva Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub. Birinci vitse-prezident bu mükafata Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə layiq görülüb.

Bu, əlbəttə ki, dünyada ən işgüzar birinci xanım kimi tanınan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinə verilən növbəti böyük dəyərdir. Azərbaycanın yüksək dəyərlərinin, humanizm prinsiplərinin beynəlxalq aləmə təqdimində əvəzsiz rol oynayan Mehriban xanım Əliyeva genişmiqyaslı fəaliyyəti ilə dövlətlərarası dostluq münasibətlərinin möhkəmləndirilməsinə də mühüm töhfələr verir.

Azərbaycan və Rusiya münasibətləri hazırda strateji tərəfdaşlıq səviyyəsindədir və məhz bu zəmində daha da inkişaf edir. İki ölkənin liderləri cənab İlham Əliyevlə, Vladimir Putin arasındakı qarşılıqlı hörmət və səmimiyyətə əsaslanan şəxsi münasibətlər isə əlaqələrin inkişafında böyük rol oynayır. Mehriban qonşuluq, qarşılıqlı hörmət və dostluq əsasında qurulan münasibətlər yeni inkişaf mərhələsindədir.

Mehriban xanım Əliyeva Rusiya-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsinə və xalqlar arasında dostluğun möhkəmləndirilməsinə verdiyi töhfələrə görə bundan öncə də ali mükafatlarla təltif edilib. 2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülən Mehriban xanım Əliyeva, həmçinin Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə, habelə Rusiya ilə Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi sahəsindəki çoxsaylı xidmətlərinə görə Moskvanın və bütün Rusiyanın patriarxı Kirill tərəfindən II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilib. 2013-cü ildə Mehriban Əliyevanın himayədarlığı ilə Həştərxanda Müqəddəs Mələksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılıb.

Birinci vitse-prezident Mehriban Əliyeva UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, hər iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, eyni zamanda onun dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi töhfə ilə bağlıdır. Bu töhfə həm də ölkəmizin siyasətinin təzahürüdür. Çünki bu gün Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır.

Azərbaycanın dünyada tanıdılması işində Mehriban Əliyeva amili çox mühüm rola malikdir. Erməni lobbisinin və antiazərbaycançı qüvvələrin ölkəmizə qarşı formalaşdırdığı mənfi stereotiplərin dağıdılması, Azərbaycan barədə həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində Birinci vitse-prezidentin milli maraqlarımıza əsaslanan tutduğu yol bu gün ölkəmizin dünyada sülhün və firavanlığın carçısı kimi tanınmasında çox böyük rol oynayır.

Azərbaycanın dünyada müsbət imicinin möhkəmlənməsində böyük xidmətləri olan Birinci vitse-prezident həm də mədəniyyətlərarası dialoqun inkişafına mühüm töhfələr verir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu yaradıldığı gündən dünya mədəniyyətinin inkişafında, sivilizasiyalararası dialoqun möhkəmlənməsində, humanist dəyərlərin, sülh və tolerantlığın yayılmasında böyük rol oynayır.

Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti, nəinki islam, hətta xristian abidələrinin qorunması, bərpası istiqamətində gördüyü işlər dünya birliyində yüksək qiymətləndirilir. Məhz Heydər Əliyev Fondunun dəstəyi ilə Parisdəki Luvr Muzeyində İslam incəsənəti bölməsi yaradılıb. Roma şəhərində yerləşən Kapitolini Muzeyində "Filosoflar zalı"nın bərpası fondun bu sahədə ən mühüm nailiyyətlərindən biri hesab edilir. Bütün bunlarla yanaşı, dünyanın müxtəlif ölkələrində baş verən təbii fəlakətlərin qurbanları da Mehriban Əliyevanın diqqətindən kənarda qalmır. Təbii fəlakətlərdən əziyyət çəkmiş ölkələrə yardımlar göstərilir, zəlzələ nəticəsində tamamilə dağılmış məktəblər yenidən inşa edilir, həmçinin çoxsaylı inkişaf proqramı və layihələri həyata keçirilir.

Ardı 2-ci səh.

## Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Qurban bayramı münasibətilə sizləri ürəkdən təbrik edirəm. İnsanseverlik, xeyirxahlıq, paylaşmaq, mərhəmət hisslərinin rəmzi olan bu müqəddəs gündə xalqımıza cansağlığı, xoş güzəran, əmin-amanlıq, tükənməyən sevgi arzu edirəm. Allah dualarınızı qəbul etsin!"

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiyanın "Dostluq" ordeni ilə təltif olunub

Prezident Vladimir Putinin fərmanı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti bu mükafata Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə layiq görülüb.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Ayqepar, Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Şuraabad, Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.



## 25 ildir Azərbaycana xidmət edən layihə

### "Əsrin müqaviləsi" bundan sonra da ölkəmizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq

Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Dərinsulu Günəşli" yataqlarının xarici şirkətlərlə birgə işlənməsi üçün sazişin imzalanmasından 25 ilə yaxın vaxt keçir.

Sonradan "Əsrin müqaviləsi" kimi məşhurlaşan bu saziş imzalanarkən çoxları onun uğur qazanacağına inanmır və hesab edirdilər ki, məsələ elə kağız üzərində qalacaq. Çünki müqavilənin həyata keçirilməsi üçün təkcə iqtisadi deyil, eyni zamanda siyasi və regional məsələlərdə öz həllini tapmalı idi. Ulu Öndər Heydər Əliyev diplomatiyası qarşıda duran məqsədə nail olmaq imkanı yaratdı.

Dünyanın ən tanınmış neft şirkətləri məhz Ulu Öndərin qətiyyətinə, dövlətçilik təcrübəsinə, beynəlxalq aləmdəki nüfuzuna arxalanaraq Azərbaycanda konsorsium yaratdılar və "Azəri-Çıraq-Günəşli" (AÇG) kimi nəhəng yataqların işlənməsi üçün sərmayə yatırdılar.

Ardı 5-ci səh.

## İki yeni sağlamlıq mərkəzi inşa edilir

Ölkəmizdə turizmin imkişafı istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Məhz bunun nəticəsidir ki, Azərbaycana gələn xarici turistlərin sayı ildən-ilə artır.

Sağlamlıq turizmi ilə bağlı ən çox diqqəti cəlb edən məkanlardan biri Naftalandır. Hər il minlərlə xarici turist bu məkanda mənalı istirahət etməklə yanaşı, müalicələrlə də şəfa tapır. "Çinar", "Qaşaltı" və "Qarabağ" istirahət və sağlamlıq mərkəzlərində yaradılan şərait hər cür müalicə və istirahət üçün təminat yaradır. Yaradılan şəraitin nəticəsidir ki, son 5 ildə turistlərin sayında 10 dəfələrlə artım qeydə alınmışdır.

Ardı 5-ci səh.










## "Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah" mövzusunda bayram tədbiri keçirilib

Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr olunmuş silsilə bayram tədbirləri davam edir.

AZƏRTAC xəbər verir ki, avqustun 14-də Dənizkənarı Milli Parkda Dövlət Bayraq meydanının yaxınlığında "Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah" mövzusunda bayram tədbiri keçirilib.

Bayram tədbirində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında Azərbaycan Sərhəd Mühafizəsinin son illərdə inkişafı və əldə etdiyi nailiyyətlər haqqında ictimaiyyət geniş məlumatlandırılıb, şəhər sakinlərinə, xüsusən də gənclərə və yeniyetmələrə Azərbaycan Respublikasının dövlət sərhədləri, sərhəd mühafizə tarixi, dövlət sərhədinin mühafizəsində tətbiq olunan hərbi və döyüş texnikası, silahlar və xüsusi sərhəd mühafizə avadanlığı haqqında ətraflı məlumatlar verilib.

Ardı 3-cü səh.

# Xoşməramlı missiya

## Birinci vitse-prezident Mehriban Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti Azərbaycanın dünya dövlətləri ilə etibarlı və strateji tərəfdaşlığına mühüm töhfələr verir

*Əvvəli 1-ci səh.*



Məhz bu xidmətlərinə görə Azərbaycanın birinci xanımı müxtəlif dövlətlərin, təşkilatların ali mükafatlarına layiq görülüb. Onların sırasında Fransanın "Şərəf Legionu" ordenini, Rusiyanın "Dostluq" ordenini, II dərəcəli Müqəddəs Məleksima Knyaginya Olqa ordenini, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordenini, Polşanın "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordenini, Pakistanın "Hilal-e Pakistan" ali ordenini, "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi" Mükafatı, Serbiyanın "Sreten" ordenini, Macarıstanın "Xidmətlərə görə" Komandor Xaçı ordenini, UNESKO-nun "Qızıl Motsart" medalını, Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalını, Krans Montana Forumunun Qızıl medalını, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medallarını göstərmək olar.

Bundan başqa, birinci xanım Avropa Olimpiya Komitələrinin Ali Ordeni, "Qızıl ürək" beynəlxalq mükafatına, Küveyt Dövlətinin Fəxri diplomuna, Beynəlxalq Xeyriyyə Təşkilatının "Yaqut xaç" mükafatına, Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatına, Bolqarıstanın Veliko Tırnovo şəhərinin mədəni irsinin qorunmasındakı xidmətlərinə görə şəhərin fəxri vətəndaşı diplomuna və döş nişanına, MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurası və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu tərəfindən "Birlik Ulduzları" dövlətlərarası mükafata, Azərbaycan-Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatına layiq görülüb.

Ölkəmizin mədəni irsinin dünyada tanıdılması ilə barabər Azərbaycanın digər ölkələrlə dostluq, tərəfdaşlıq münasibətlərinin genişləndirilməsinə də öz töhfəsini verən Birinci vitse-prezidentin həyata keçirdiyi layihələr də xüsusi diqqət çəkir.

Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində bir sıra memarlıq abidələrinin - Dünya Mədəni İrs Siyahısına daxil edilmiş Versal Sarayını, Vatikanda yerləşən Müqəddəs Sebastian katakombalarını, Müqəddəs Marçellinio və Pietro katakombalarını bərpa edib, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər Sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycan Orta əsrlər əlyazmalarının bərpa olunmasına kömək göstərib.

Göründüyü kimi, Avropada islam-xristian dialoqunda böyük rol oynayan Mehriban xanım Əliyevanın təşəbbüs və təklifləri müxtəlif sivilizasiya platformalarının qovuşuğunda yerləşən Azərbaycanın sosial-humanitar və mədəni modernləşməsinin hərəkətverici amilinə çevrilib. Dünya mədəniyyəti, xüsusilə də xristianlar üçün böyük mənəvi dəyəri olan katakombaların müsəlman ölkəsi tərəfindən bərpa edilməsi ölkəmizin dinlərarası və mədəniyyətlərarası dialoqa verdiyi növbəti töhfədir. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünya əhəmiyyətli tarixi, dini, mədəni abidələri bərpa etməsi həm də ümumilikdə, ölkəmizin təbliği, dünyada layiqincə təmsil olunması baxımından mühüm əhəmiyyətə malikdir.

Məhz bu amilləri nəzərə alan Prezident İlham Əliyev 4 il öncə, 2015-ci ildə Birinci vitse-prezidentin fəaliyyətini Azərbaycanın ən ali mükafatı ilə dəyərləndirb. Dövlət başçısının sərəncamı ilə Mehriban xanım Əliyeva Azərbaycanın ictimai-siyasi və mədəni həyatında, mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, xalqın mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif edilib.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti dünya səviyyəsində təqdir edilir. Onun həm daxildə, həm də ölkəmizdən kənarda apardığı xeyriyyəçilik işləri Azərbaycan qadınının humanizm, mərhəmət kimi dəyərlərə malik olduğunu, dövlət strukturlarında, siyasi arenada və digər sahələrdə istedadlı insan kimi fəallıq göstərdiyini nümayiş etdirir. Bu gün fəxarətlə deyə bilərik ki, dünyanın bir çox ölkələrinin təsis etdiyi ali mükafat və adların təqdimində Mehriban xanım Əliyevanın isminin xüsusi olaraq vurğulanması həm də xeyriyyəçi, mərhəmətli Azərbaycan qadınına verilən böyük dəyərdir.

***Rəşad BAXŞƏLİYEV.***
***"Azərbaycan"***

# Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüş



Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Birinci Xəzər İqtisadi Forumunda iştirak etmək üçün Türkmənistanın Türkmənbaşı şəhərində səfərdədir.

AZƏRTAC xəbər verir ki, avqustun 12-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın Baş Naziri Novruz Məmmədov ilə görüşüb.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən ilin noyabrında Türkmənistana rəsmi səfərinin, səfər çərçivəsində aparılan danışıqların və imzalanan sənədlərin ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi baxımından önəmli rol oynadığı qeyd edilib.

Prezident Qurbanqulu Berdiməhəmmədov Azərbaycan ilə çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə uyğun olaraq uzunmüddətli tərəfdaşlıq münasibətlərinin inkişafında maraqlı olduqlarını bildirib.

Tərəflər Türkmənistan-Azərbaycan dialoqunun mövcud durumu və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıblar. Görüşdə qeyd olunub ki, Xəzər regionunda qonşu olan Azərbaycan və Türkmənistan müasir dövrün aktual problemlərinin həll yollarının axtarışında strateji tərəfdaş kimi çıxış edirlər.

# Azərbaycan ilə İran arasında iqtisadi əməkdaşlıq uğurla inkişaf edir



Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Türkmənistana səfəri çərçivəsində İranın Birinci vitse-prezidenti Eshaq Cahangiri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Baş Nazir ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirib, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb. Novruz Məmmədov iqtisadi əməkdaşlığın genişləndiyini, iki ölkə arasında mühüm layihələrin həyata keçirildiyini qeyd edib.

İranın Birinci vitse-prezidenti Eshaq Cahangiri də Azərbaycan ilə İran arasında iqtisadi əməkdaşlığın uğurla inkişaf etdiyini deyib, birgə layihələrin reallaşmasının həm ikitərəfli sahədə, həm də bölgədə əməkdaşlıq baxımından əhəmiyyətli olduğunu bildirib.

Tərəflər Soçidə təşkil olunacaq Azərbaycan-Rusiya-İran sammiti çərçivəsində dövlət başçıları səviyyəsində keçiriləcək görüşün ölkələrimizin regional əməkdaşlığı baxımından vacib əhəmiyyət daşıdığını qeyd ediblər. Görüşdə Azərbaycan ilə İran arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub və əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb.

# Baş Nazir Novruz Məmmədov Birinci Xəzər İqtisadi Forumunda iştirak edib







Avqustun 12-də Türkmənistanın Türkmənbaşı şəhərində Birinci Xəzər İqtisadi Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, foruma Xəzəryanı ölkələrin - Rusiyanın Baş Naziri Dmitri Medvedev, İran İslam Respublikasının Birinci vitse-prezidenti Eshaq Cahangiri, Qazaxıstanın Baş Naziri Askar Mamin, qonaq qismində isə Bolqarıstanın Baş Naziri Boyko Borisov və Özbəkistanın Baş Naziri Abdulla Aripovun başçılıq etdikləri nümayəndə heyətləri, o cümlədən Xəzər regionunun bank və biznes sektorunun nümayəndələri, tədqiqatçılar və iqtisadiyyatın inkişafı ilə məşğul olan şirkətlərin rəhbərləri qatılıblar. Forumda Azərbaycan Respublikasını Baş Nazir Novruz Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Forumu açıq elan edən Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov çıxışında bildirib ki, Xəzər dənizinin karbohidrogen ehtiyatlarından səmərəli istifadə regionun iqtisadiyyatının böyüməsi üçün güclü impuls ola bilər. O qeyd edib ki, region ölkələri Xəzərin inkişafı üçün aktual praktik məsələlərin həllinə yönəlməlidirlər və "Xəzər enerjisi" regionun iqtisadiyyatının dinamik inkişafı üçün əsas olmalıdır: "Xəzərdə karbohidrogen hasilatının artması regionda bütün iqtisadi mənzərəni əsaslı şəkildə dəyişdirməyə, onu bərabərhüquqlu və effektiv tərəfdaş kimi qlobal iqtisadi məkana inteqrasiya etməyə qadirdir".

Forumda çıxış edən Baş Nazir Novruz Məmmədov qeyd edib ki, Azərbaycan Birinci Xəzər İqtisadi Forumunun keçirilməsi təşəbbüsünü alqışlayır. Tədbirin yüksək səviyyədə təşkilinə görə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova təşəkkürünü bildirən Baş Nazir deyib ki, bu forum Xəzəryanı ölkələr arasında əməkdaşlığın fəallaşdırılmasının yeni formatı olacaq. Novruz Məmmədov forum iştirakçılarının diqqətinə çatdırıb ki, 2018-ci ildə Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanandan sonra Xəzər regionunun iqtisadi inkişafı məsələsi xüsusilə aktuallaşıb. Azərbaycan tərəfi güman edir ki, Xəzər İqtisadi Forumu ticarət, nəqliyyat, investisiya və turizm sahələrində əməkdaşlığımıza əlavə təkan verəcək.

Baş Nazir forum çərçivəsində Xəzər İnnovasiya Texnologiyaları Sərgisinin keçirilməsinə də toxunaraq ümidvar olduğunu bildirib ki, belə sərgilərin keçirilməsi Xəzəryanı ölkələrin biznes dairələri arasında qarşılıqlı iqtisadi əlaqələrin genişlənməsinə və regionda informasiya kontentinin yaxşılaşmasına şərait yaradacaq, sahibkarlar arasında bilavasitə görüşlərin keçirilməsi isə regionun ümumən firavanlaşması işində mühüm rol oynayacaq. Azərbaycan tərəfi digər yüksək səviyyəli rəsmi tədbirlər fonunda işgüzar dairələrin bu cür görüşlərinin keçirilməsini hərtərəfli dəstəkləyir, Xəzəryanı dövlətlərlə qarşılıqlı hörmətə və etimada əsaslanan ikitərəfli münasibətlərin inkişafına xüsusi diqqət yetirir.

Azərbaycanın Xəzəryanı ölkələrlə ticarət əlaqələrinin ən yüksək səviyyədə olduğunu vurğulayan Baş Nazir deyib: "2019-cu ilin birinci yarısında Xəzəryanı dövlətlərlə Azərbaycanın ticarət dövriyyəsi əvvəlki ilin müvafiq göstəriciləri ilə müqayisədə 28 faizdən çox artıb. Eyni dövrdə ölkəmizin xarici ticarət dövriyyəsində Xəzəryanı dövlətlərin payı 11 faizdən çox olub. Ümidvaram ki, biznes dairələrinin bu forum çərçivəsində təşkil edilən görüşləri qarşılıqlı ticarətin həcminin daha da artmasına gətirib çıxaracaq".

Beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafının təmin edilməsinin region iqtisadiyyatının effektivliyinin artırılmasında mühüm rol oynadığını bildirən Baş Nazir Novruz Məmmədov əlavə edib ki, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətlərimizin iqtisadi imkanlarını genişləndirir, onların əhəmiyyətini artırır. Tarixi İpək yolunun bütün dövrlərdə Avropa ilə Asiyanı birləşdirən strateji ticari-iqtisadi dəhliz kimi məşhur olduğunu xatırladan Baş Nazir deyib ki, ölkələrimizin əlverişli coğrafi mövqeyi, burada həyata keçirilən genişmiqyaslı layihələr, tranzit və yükdaşıma potensialından səmərəli istifadə olunması bu sahədən əldə edilən gəlirlərin həcmini durmadan artırmaq üçün yaxşı imkanlar yaradır: "Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq layihələrinin həyata keçirilməsi çərçivəsində çox fəal əməkdaşlıq edir. Məsələn, 2018-ci ildə "Şərq-Qərb" marşrutu üzrə ölkəmizin ərazisindən keçməklə, ümumi çəkisi 9 milyon tondan çox olan tranzit yüklər daşınıb. Qeyri-neft məhsullarının tranzitində daha güclü artım müşahidə olunub. Bu artım 49 faizə bərabərdir. "Şimal-Cənub" marşrutu üzrə yüklərin tranzitinin həcmində 8 dəfə artım qeydə alınıb. Bu rəqəmlər bir daha göstərir ki, tranzit yolların genişlənməsi davam edir, ticarət dövriyyəsi artır, bu da son nəticədə bütövlükdə regionun firavanlaşmasına doğru aparır".

Çıxışında yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Azərbaycanın nəqliyyat sistemində mühüm yer tutduğunu vurğulayan Baş Nazir bildirib ki, liman istifadəyə veriləndən sonra bu logistika mərkəzi regionda avtomobil, dəmir yolu və dəniz yollarının kəsişdiyi məkana çevrilib: "Hazırda bu limanın buraxıcılıq qabiliyyəti ildə 15 milyon ton yük və 100 min konteyner daşımağa imkan verir. Bu göstəriciləri ildə 25 milyon ton yükə və 1 milyon konteynerə çatdırmaq planlaşdırılır. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan Xəzər dənizində ən böyük - 260 gəmidən ibarət ticarət donanmasına malikdir. Liman ətrafında azad iqtisadi zonanın yaradılması ticari-iqtisadi və nəqliyyat sahələrində əməkdaşlığın inkişafına şərait yaradacaq".

Çıxışının sonunda Azərbaycan Respublikasının Baş Naziri forum iştirakçılarını mənəvi birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, səmimi qəbula və qonaqpərvərliyə görə Türkmənistan rəhbərliyinə bir daha təşəkkürünü bildirib.

Forumda çıxış edən digər iştirakçılar da Xəzər dənizinin Xəzəryanı ölkələr arasında əməkdaşlığın daha da dərinləşməsinə şərait yaradan mühüm birləşdirici amil olduğunu xüsusi vurğulayıblar. Tədbirdə əminlik ifadə olunub ki, Xəzər İqtisadi Forumu qarşılıqlı iqtisadi fəaliyyətin aktual məsələlərinin müzakirə edilməsi üçün mühüm məkan olacaq, regionumuzun son dərəcə zəngin potensialını üzə çıxaracaq və ölkələrimizin inkişafına nəzərəçarpacaq səmərə verəcək.

İkinci Xəzər İqtisadi Forumunun Rusiyanın Həştərxan şəhərində keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Birinci Xəzər İqtisadi Forumunda ticarət və iqtisadi əlaqələrin inkişafı, əsasən də böyük layihələr üçün şəraitin yaradılması, Xəzər regionunun iqtisadiyyatının qlobal kontekstdə rolu, neft və qaz, elektrik enerjisi, nəqliyyat, ticarət, kənd təsərrüfatı, turizm və Xəzəryanı dövlətlərin qarşılıqlı maraq kəsb edən digər sahələrində investisiya cəlbediciliyi müzakirə olunub. Həmçinin forum çərçivəsində beynəlxalq konfrans, Xəzər İnnovasiya Texnologiyaları Sərgisi, işgüzar dairələrin və şirkətlərin nümayəndələri arasında görüşlər təşkil edilib.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul



Avqustun 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Naxçıvana yeni təyin olunmuş baş konsulu Seyid Əhməd Hüseynini qəbul edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri muxtar respublikada baş konsul kimi fəaliyyətə başlaması və Qurban bayramı münasibətilə Seyid Əhməd Hüseynini təbrik edib, dost və qonşu ölkələr olan Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı əlaqələrin nümunə gücündə olduğunu bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında da əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdıran Ali Məclisin Sədri ikitərəfli münasibətlərin qarşılıqlı hörmət və ehtirama əsaslandığını vurğulayıb. Ali Məclisin Sədri təcrübəli diplomatın muxtar respublikaya baş konsul təyin olunmasını İran İslam Respublikasının Azərbaycana və onun Naxçıvan Muxtar Respublikasına verdiyi əhəmiyyətin daha bir ifadəsi kimi dəyərləndirib, Seyid Əhməd Hüseyniyə fəaliyyətində uğurlar arzulayıb. Səmimi qəbula görə minnətdarlıq edən Seyid Əhməd Hüseyni Qurban bayramı münasibətilə təbriklərini çatdırıb, müqəddəs gündə Naxçıvanda diplomatik fəaliyyətə başlamağından məmnunluğunu ifadə edib. İran İslam Respublikasının Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini diqqətə çatdıran baş konsul mövcud əməkdaşlığın daha da genişləndirilməsində səylərin artırılacağını bildirib və etimadnaməsini Ali Məclisin Sədrinə təqdim edib.

# Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Tovuz rayonunda vətəndaşlarla görüşüb

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Tovuz rayonunda vətəndaşları qəbul edib.

Vətəndaşların məşğulluğun təminatı, özünüməşğulluq proqramına cəlb edilmə, pensiya və sosial müavinət, əlillik, reabilitasiya və sosial xidmətlər, əmək hüquqlarının müdafiəsi və s. məsələlərlə bağlı müraciətləri dinlənilərək cavablandırılıb. Nazirin tapşırıqlarına uyğun olaraq, ayrı-ayrı vətəndaşlar müraciətləri nəzərə alınmaqla özünüməşğulluq proqramına, peşə hazırlığına, nazirliyin reabilitasiya müəssisələrində bərpa müalicəsinə, reabilitasiya və sosial xidmətlərə cəlb edilmələri üçün qeydiyyata alınıblar. Məşğulluq üçün müraciət edən bir qisim vətəndaşa ərazi üzrə vakant iş yerləri təklif olunub və onlara əmək bacarıqlarına uyğun münasib iş yerlərinə göndərişlər təqdim edilib. Eləcə də müraciətlərdə ifadə olunan ayrı-ayrı məsələlərlə əlaqədar vətəndaşlara izahatlar verilib.

Qəbul zamanı vətəndaşlar respublikamızda həyata keçirilən uğurlu sosial islahatlardan razılıqla söhbət açıblar. Onlar əməkhaqlarının, pensiya, müavinət və təqaüdlərin ciddi şəkildə artırılması istiqamətində atılan mühüm addımlara, sosial müdafiə və aktiv məşğulluq proqramlarının genişləndirilməsi üçün aparılan işlərə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***AZƏRTAC***

# Müdafiə naziri cəbhəboyu zonada tikintisi davam edən bir neçə hərbi hissədə olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan islahatlara əsasən cəbhəboyu zonanın müxtəlif istiqamətlərində yeni hərbi obyektlərin tikintisi davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Silahlı Qüvvələrin Ali Baş Komandanının tapşırığının icrası ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada tikintisi davam edən bir neçə hərbi obyektdə olub.

Müdafiə nazirinə məruzə edilib ki, ilin sonunadək istifadəyə verilməsi planlaşdırılan bu hərbi şəhərciklər su, qaz, istilik və digər kommunikasiya sistemləri ilə tam təmin olunacaq, hərbi obyektlərdə ən müasir qurğular quraşdırılacaq.

Bildirilib ki, bu hərbi şəhərciklərdə qərargahlar, zabit və əsgər yataqxanaları, yeməkxanalar, döyüş texnikası üçün saxlanclar, digər inzibati bina və qurğular inşa ediləcək. Eyni zamanda hərbi qulluqçuların yaşayışı və xidməti-döyüş tapşırıqlarını yerinə yetirmələrini təmin etmək məqsədilə müvafiq məişət və ictimai iaşə obyektləri, o cümlədən qazanxana, camaşırxana-hamamxana kompleksləri, tibb məntəqələri və digər infrastruktur obyektlərinin tikilməsi də nəzərdə tutulub.

Yeni inşa edilən hərbi hissədə aparılan tikinti işlərinin gedişatını yoxlayan Müdafiə naziri inşaat işlərinin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.



# Rusiya Müdafiə Nazirliyinin nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdədir

Avqustun 14-də Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini Ruslan Salikovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə qonaqlar Ümummilli Lider Heydər Əliyevin Hərbi Dəniz Qüvvələri qərargahı qarşısında ucaldılan abidəsi önünə gül dəstələri qoyaraq öz ehtiramlarını ifadə ediblər.

Qonaqları salamlayan general-leytenant K.Vəliyev ölkələrimiz arasında əlaqələrin qurulmasında dövlət başçılarının böyük rol oynadıqlarını, əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimad əsasında aparıldığını, bu əlaqələrin daim inkişaf etdiyini, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan general-leytenant K.Vəliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə olduğunu, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini R.Salikov da ölkələrimiz arasındakı əlaqələrin tarixi köklərə əsaslandığını, hər iki ölkənin strateji tərəfdaş olduğunu qeyd edərək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin inkişafı baxımından mühüm rol oynadığını bildirib.

Sonda "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarının əhəmiyyətindən danışan R.Salikov "Dəniz Kuboku" müsabiqəsinə evsahibliyi etdiyinə, tədbirin yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

# "Dəniz kuboku-2019" müsabiqəsində hava hədəflərinə artilleriya atışları yerinə yetirilib

"Dəniz kuboku-2019" müsabiqəsində Azərbaycan, Rusiya, Qazaxıstan və İran hərbi gəmilərinin ekipajları hava hədəflərinə artilleriya atışları yerinə yetiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu mərhələdə komandalara şərti düşmənin təyyarəsi gəmiyə aviasiya bombası atdıqdan sonra hava hədəfinin artilleriya atəşləri ilə məhv edilməsi tapşırılıb. Gəmilərin vaxtında gəlməsinə və hədəflərin məhv edilməsinə görə beynəlxalq hakimlər briqadası tərəfindən qiymətləndirmə aparılıb.

Mərhələnin nəticələrinə əsasən Azərbaycan komandası 38 balla birinci, Rusiya 19 balla ikinci, İran 16 balla üçüncü, Qazaxıstan dənizçiləri isə 12 balla dördüncü yerlərdə qərarlaşıblar.

# "Səhra mətbəxi" müsabiqəsinin son mərhələsi başa çatıb

Moskva vilayətinin Alabino hərbi poliqonunda təşkil edilən "Beynəlxalq Ordu Oyunları - 2019" çərçivəsində keçirilən "Səhra mətbəxi" müsabiqəsinin son mərhələsi başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yarışın son günündə iştirakçı komandalar çörək bişirmək üzrə bacarıqlarını nümayiş etdiriblər.

Beləliklə, "Səhra mətbəxi" müsabiqəsinin ümumi yekunlarına görə hakimlərin qərarına əsasən Rusiya Federasiyası birinci, Belarus ikinci, Qazaxıstan üçüncü, Azərbaycan komandası isə dördüncü yerdə qərarlaşıb.

# Fərarilik etmiş erməni hərbi qulluqçu təmas xəttində bölmələrimiz tərəfindən saxlanılıb

Avqustun 12-də səhər saatlarında cəbhənin Füzuli rayonu istiqamətində düşmən tərəfindən fərarilik etmiş hərbi qulluqçu Kazaryan Aro Xaykoviç bölmələrimizin sayıqlığı nəticəsində saxlanılıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilkin dindirilmə nəticəsində düşmən hərbçisinin fərarilik etməsinə səbəb xidmət etdiyi hərbi hissədə hökm sürən özbaşınalıq, hərbi qulluqçulara qarşı dözülməz və qeyri-insani münasibət olduğu müəyyənləşib.

Erməni hərbi qulluqçu A.Kazaryanın uzun müddət ərzində komandirləri və digər hərbi qulluqçular tərəfindən dəfələrlə fiziki və mənəvi təzyiqlərə məruz qalması onun baş nahiyəsindəki hematomalar və bədənindəki yaralardan da aydın görünür.

Hazırda A.Kazaryana tibbi yardım göstərilir. Hadisənin araşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

# "Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah" mövzusunda bayram tədbiri keçirilib























Foto A.MƏMMƏDOVUNDUR

*Əvvəli 1-ci səh.*

Tədbirdə DSX-nin döyüş və zirehli texnikası, uçuş vasitələri, pilotsuz uçan aparatları, sərhəd gözətçi gəmiləri, ən müasir silah və sursatları, sərhəd mühafizə və digər xüsusi hərbi avadanlıqlar, dövlət sərhədinin mühafizəsində istifadə olunan mühəndis-texniki qurğular, sərhəd nəzarəti texnikası nümayiş olunub. Tədbir iştirakçılarına hərbi və döyüş texnikası ilə bilavasitə tanış olmaq, onların üzərində şəkil çəkdirmək, səhra mətbəxində əsgər yeməyindən dadmaq, interaktiv tirdə atəş açmaq, qısa müddət ərzində özlərini sərhədçi kimi hiss etmələri üçün şərait yaradılıb.

Tədbirdə nümayiş olunan "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanışlıq iştirakçılarda böyük maraq doğurub. Gəmi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı mübarizə kompleksi, gecə-gündüz görmə müşahidə sistemləri və hidroakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən, itisürətli qayıqla təchiz edilmiş və 62 metr uzunluğunda olan sərhəd gözətçi gəmisinin dəniz şəraitində göyərtəsinə helikopterin enməsi mümkündür. Gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhəd sularında rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə olunur.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin silahlanmasında yer alan "Harop" kamikadze pilotsuz uçuş aparatı da (PUA) nümayiş etdirilib.

Bildirilib ki, 2016-cı ilin aprelində Ermənistan ordusunun cəbhənin dərinliyindəki mövqelərinə və canlı qüvvələrinə "Harop" vasitəsilə zərbələr endirilib.

Burada nümayiş olunan "Kobra" maşını da iştirakçılar tərəfindən maraqla qarşılanıb. Bu maşın kompleks gecəgörmə cihazı ilə də təchiz olunub. Bu kompleks məhdud görünmə şəraitində də düşmənin texnikasını məhv etmək qabiliyyətinə malikdir. Çevik bölmələrin vaxtında döyüş meydanına gətirilməsi üçün təyin olunan taktiki döyüş maşınının üzərində isə 12,7 millimetrlik pulemyot (DŞK) quraşdırılıb.

Buradakı texnikalar sırasında diqqətimizi çəkənlərdən biri də "Toyota" avtomaşınlarının üzərində quraşdırılmış uzaq məsafəli müşahidə-nəzarət sistemi oldu. Hazırda bu sistem dünyanın bir neçə güclü ordusunun istifadəsində yer alır. Kompleks yüksək performanslı gündüz, gecə və termal kamera, lazer məsafəölçən, GPS və rəqəmsal kompasdan ibarətdir. Sabitləşdirilmiş sistem hədəfləri avtomatik izləmə qabiliyyətinə malikdir. Kompleks düşmən mövqelərini, obyektlərini, şəxsi heyətini, zirehli texnikasını və arxa hüdudda olan hərəkətlərini 40 kilometr dərinlikdə müşahidə edir. Bütün çəkilişlər qeydə alınır.

DSX-nin "Mi-17" helikopterləri, döyüş və zirehli texnikası, uçuş vasitələri, pilotsuz uçan aparatları, ən müasir silah və sursatları, sərhəd mühafizə avadanlıqları, dövlət sərhədinin mühafizəsində istifadə olunan mühəndis-texniki qurğular, sərhəd nəzarəti texnikası ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

Tədbir çərçivəsində Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestri, rəqs ansamblı və "NUR" vokal-instrumental qrupu geniş konsert proqramı ilə çıxış edib.

❖ ❖ ❖

Dövlət Sərhəd Xidməti (DSX) sərhədlərimizin etibarlı mühafizəsini təmin etməklə yanaşı, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onlarda sərhədçi peşəsinə marağın artırılması, sağlam həyat tərzinin təbliği və gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə ardıcıl tədbirlər həyata keçirir.

Bu tədbirlər çərçivəsində avqustun 10-11-də "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyinə həsr olunmuş sərbəst güləş üzrə açıq birincilik keçirilib. Yarışda respublikamızın müxtəlif bölgələrini təmsil edən 30 komandanın heyətində 250 idmançı müxtəlif çəki dərəcələrində qüvvələrini sınayıb.

Yarışın təntənəli açılış mərasimində çıxış edənlər müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Dövlət Sərhəd Xidmətinin yaradıcısı Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini böyük minnətdarlıq hissi ilə xatırladıblar. Çıxışlarda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ali diqqəti və qayğısı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yuksək təşkilatçılığı ilə ölkəmizdə keçirilən beynəlxalq idman yarışlarının Azərbaycan dövlətinin gücünü, iqtisadi qüdrətini, möhtəşəm tədbirləri təşkil etmək bacarığını, qazanılan qələbələrin isə ölkəmizdə idmana və idmançılara göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi olduğu vurğulanıb.

Yarışda 15 idmançısı ilə iştirak edən "Sərhədçi" komandası 6 qızıl, 4 gümüş və 2 bürünc medal qazanaraq kuboka sahib olub. İdmançılardan Mahir Məmmədov (48 kq), Camal Qasımov (55 kq), Zeyqəm Qurbanov (65 kq), Əli Əmirov (80 kq), Xəlil Allahverdiyev (92 kq), Murad Bəhlulzadə (110 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Tamaşaçıların böyük marağına səbəb olan yarışların qalibləri mükafatlandırılıb.

❖ ❖ ❖

Dövlət Sərhəd Xidməti (DSX) Azərbaycan Sərhəd Mühafizəsinin 100-cü ildönümünü yüksək inkişaf dinamikası və qazanılmış xidməti uğurlarla qarşılayır. DSX-nin çoxsahəli fəaliyyətində hərbi vətənpərvərlik tərbiyəsinə, vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasına yüksək diqqət yetirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında müxtəlif müsabiqələr xüsusi yer tutur.

Ənənəvi olaraq Azərbaycan Sərhəd Mühafizəsinin ildönümü ərəfəsində bədii ədəbiyyat, qəzet məqaləsi, təsviri sənət, mahnı, dekorativ-tətbiqi sənət nominasiyaları üzrə yaradıcılıq müsabiqələri, həmçinin orta məktəb şagirdləri arasında "Sərhədlərimizin keşiyində" mövzusunda inşa yazı müsabiqəsi keçirilib. Müsabiqələrdə 1000 nəfərdən çox yaradıcı insan, peşəkar və həvəskar yazıçılar, şairlər, rəssamlar, jurnalistlər, sərhədçi zabit və gizirlər, onların ailə üzvləri, əsgərlər, ümumtəhsil məktəblərinin şagirdləri iştirak ediblər.

Müsabiqə iştirakçıları tərəfindən təqdim olunmuş çoxsaylı əsərlərin sırasından ən yaxşıları seçilərək 30 şeir, 35 hekayə, 39 qəzet məqaləsi, 132 inşa yazısı, 21 mahnı və 136 rəsm və dekorativ-tətbiqi sənət əsəri müsabiqənin finalına buraxılıb, peşəkar mütəxəssislərdən ibarət münsiflər heyəti tərəfindən müsabiqənin finalçıları arasından qaliblər müəyyənləşdirilib.

Avqustun 13-də Dövlət Sərhəd Xidmətinin Akademiyasında Təhsil Nazirliyinin, Mətbuat Şurasının, Yazıçılar Birliyinin və Rəssamlar İttifaqının birgə təşkilatçılığı ilə keçirilmiş yaradıcılıq müsabiqələrinin qaliblərinin mükafatlandırılmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən qabaqcıl və firavan ölkələrindən birinə çevrilən Azərbaycan Respublikasında gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə yanaşı, onların intellektual inkişafına və yaradıcılıq fəaliyyətinə dövlətimiz tərəfindən qayğı göstərildiyi, sərhədçilərin fədakar xidmətlərinin təbliğində, sərhədçi peşəsinə rəğbət və ehtiram hissinin aşılanmasında keçirilən müsabiqələrin çox böyük əhəmiyyət kəsb etməsini xüsusi vurğulayıblar.

Mərasimdə müsabiqələrin qaliblərinə diplomlar və pul mükafatları təqdim olunub. Müsabiqəyə təqdim olunmuş təsviri sənət nümunələri nümayiş etdirilib.

# Prezident İlham Əliyevin iqtisadi islahatları dayanıqlı inkişaf üçün möhkəm zəmin yaradır

Prezident İlham Əliyevin yanında keçirilmiş sosial-iqtisadi sahə ilə bağlı müşavirədə dövlət başçısı tərəfindən verilmiş tapşırıqların icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyinin geniş kollegiya iclası keçirilib.



Nazirliyin strukturlarının və tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə keçirilmiş iclasda İqtisadiyyat naziri, kollegiyanın sədri Şahin Mustafayev vurğulayıb ki, müşavirədə Prezident 2019-cu ilin birinci yarımilliyində ölkəmizin inamla inkişaf etdiyini, böyük infrastruktur layihələrinin icra olunduğunu qeyd edib, görülmüş işləri müsbət qiymətləndirib.

Dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasında olan Azərbaycan iqtisadiyyatı bu ilin birinci yarımilliyində 2,4 faiz, qeyri-neft sektoru 3,2 faiz, qeyri-neft sənayesi 15,7 faiz, ticarət dövriyyəsi 20 faizdən çox, qeyri-neft ixracı 15 faiz, kənd təsərrüfatı məhsullarının istehsalı 13 faiz artıb. Ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub ki, bunun da böyük hissəsi qeyri-neft sektorunun payına düşür. Bildirilib ki, valyuta ehtiyatlarımız rekord həddə çataraq 49 milyard dollar səviyyəsindədir. Bu ilin 6 ayında əhalinin gəlirləri 6,6 faiz artıb, inflyasiya 2,5 faiz təşkil edib.

Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasının dövlət başçısının inkişaf strategiyasının əsas hədəflərindən olduğunu vurğulayan kollegiyanın sədri Şahin Mustafayev 2019-cu ilin əvvəlində böyük sosial paketin təsdiqləndiyini və bunun 4,2 milyon insanı əhatə etdiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, sosial-iqtisadi sahə ilə bağlı müşavirədə dövlət başçısı qarşıdakı dövr üçün mühüm vəzifələr müəyyənləşdirib. Belə ki, Prezident İlham Əliyev iqtisadi artım üçün yeni mənbələrin axtarılması, qeyri-neft sektorunun inkişafı, istehlak bazarına daim nəzarət olunması, ərzaq təhlükəsizliyinin təmini, kənd təsərrüfatına dövlət dəstəyinin davam etdirilməsi, sosial sahənin diqqət mərkəzində saxlanılması, iş yerlərinin açılması, o cümlədən özəl sektorda daha çox iş yerlərinin yaradılması, Azərbaycanın innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etdirilməsi və s. istiqamətdə tapşırıqlar verib.

Dövlət başçısının tapşırıqlarının icrası istiqamətində İqtisadiyyat Nazirliyi tərəfindən görülən və həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə Şahin Mustafayev kollegiya iştirakçılarını geniş məlumatlandırıb.

İqtisadiyyatın aparıcı sahələrinin inkişafı istiqamətində görülən işlərdən danışan Şahin Mustafayev bildirib ki, dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, sənaye parkları və məhəllələrinin yaradılması, rezidentlərin fəaliyyətinin genişləndirilməsi və yeni iştirakçıların cəlb edilməsi istiqamətində işlər davam etdirilir. Sənaye parklarında istehsal olunan məhsullar daxili bazara çıxarılmaqla yanaşı, xarici ölkələrə ixrac olunur. Sənayenin inkişafının əsas prioritetlərdən olduğunu qeyd edən İqtisadiyyat naziri ölkəmizin sənaye potensialının araşdırılmasının, bu istiqamətdə təhlillərin aparılmasının davam etdirilməsi barədə nazirliyin aidiyyəti strukturlarına müvafiq tapşırıqlar verib.

Kollegiya iclasında qeyri-neft sənayesinin sürətlə inkişaf etdiyi, toxuculuq, qida, spirtli və spirtsiz içki, avtomobilqayırma, kimya, ağac emalı, mebel istehsalı sahələrində yüksək artıma nail olunduğu diqqətə çatdırılıb, bu sahələrin, eləcə də, gön-dəri emalı, balıqçılıq sahələrinin inkişafı istiqamətində görülən işlərin davam etdirilməsi barədə göstərişlər verilib.

Əlverişli coğrafi mövqeyi olan Azərbaycanın tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadi diversifikasiya siyasətində mühüm yer tutur. Kollegiya iclasında qeyd edilib ki, bu ilin birinci yarısında da ölkənin nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib. 2019-cu ilin birinci yarısında ölkə ərazisindən 4,1 milyon ton tranzit yük daşınıb. Bu dövr ərzində Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmində 63 faiz artım müşahidə olunub, 131 min ton yük daşınıb. Şimal-Qərb və Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Belə ki, bu ilin 6 ayında Şimal-Qərb nəqliyyat dəhlizi ilə daşınan ümumi tranzit yükün həcmi 70 faiz artaraq 829 min ton təşkil edib. Şərq-Qərb nəqliyyat dəhlizi ilə daşınan qeyri-neft məhsullarının həcmi isə 42,8 faiz artaraq 795 min ton olub.

Kollegiya iclasında vurğulanıb ki, bu ilin birinci yarısında özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilib. İlin birinci yarısında sahibkarlara 1130 lisenziya verilib ki, bunun da 568-i yeni, 562-si isə müddətsiz lisenziyalarla əvəzetmə təşkil edir. Ümumilikdə isə İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzləri vasitəsilə 2 noyabr 2015-ci il tarixindən 1 iyul 2019-cu il tarixinədək sahibkarlara 7900-dən çox lisenziya verilib. Sahibkarlar tərəfindən ötən ilin martında yaradılan "Lisenziyalar və icazələr" portalı vasitəsilə artıq 1100-dən çox elektron lisenziya alınıb.

İnvestisiya təşviqi sənədinin iqtisadiyyata sərmayələrin cəlb edilməsində əhəmiyyətli mexanizm olduğunu qeyd edən Şahin Mustafayev bildirib ki, bu ilin birinci yarısında dəyəri 449 milyon manatdan çox olan layihələr üzrə 50 investisiya təşviqi sənədi verilib. Layihələrin 58 faizi sənaye, 34 faizi kənd təsərrüfatı, 8 faizi isə turizm sahələrini əhatə edir.

İclasda özəl sektorda həyata keçirilən layihələrə dövlət dəstəyi tədbirlərinin gedişi də müzakirə olunub. Bildirilib ki, özəl sektorun uzunmüddətli və əlverişli şərtlərlə maliyyə resurslarına çıxışının təmin olunması üçün bu ilin birinci yarımilliyində sahibkarlığın güzəştli kreditləşdirilməsi davam etdirilib.

Son 6 ayda İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarların maarifləndirilməsi, nümunəvi investisiya layihələrinin təqdim olunması, güzəştli kreditlərin verilməsi ilə bağlı 1500 sahibkarın iştirakı ilə 12 işgüzar forum keçirilib, müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 178 milyon manat olan 510 investisiya layihəsinin maliyyələşdirilməsinə 50 milyon manatadək güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 1265 yeni iş yerinin açılmasına imkan yaradır. Güzəştli kreditlərin 68 faizi aqrar sektorun, 32 faizi sənaye istehsalı və emalının, eləcə də 44 faizi regionların, 56 faizi isə Bakı qəsəbələrinin payına düşür.

Kollegiyanın sədri Şahin Mustafayev regionlarda iş yerlərinin açılmasında və məşğulluğun təmin olunmasında əhəmiyyətli rol oynayan aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması və mövcud arqroparkların genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi barədə müvafiq strukturlara göstərişlər verib.

Bildirilib ki, kiçik və orta biznesin (KOB) iqtisadiyyatda rolunun artırılması dövlət başçısının sosial-iqtisadi inkişaf strategiyasında əsas prioritetlərdəndir. KOB-lara dəstək məqsədi ilə yaradılmış Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən 2019-cu ilin yanvar-iyun ayları ərzində mikro, kiçik və orta sahibkarların məlumatlandırılması, onlara müxtəlif xidmətlərin göstərilməsi, yeni dəstək mexanizmlərinin yaradılması, KOB-ların maraqlarının müdafiəsi istiqamətində müvafiq tədbirlər görülüb. Belə ki, bu dövrdə 5 KOB dostu fəaliyyətə başlayıb ki, bununla da ölkə üzrə KOB dostlarının sayı 15-ə çatdırılıb. Sahibkarlara bütün dövlət-biznes ("G2B") və zəruri biznes-biznes ("B2B") xidmətlərin vahid məkanda göstərilməsi məqsədilə hazırda Bakı şəhərində yaradılmaqda olan ilk kiçik və orta biznes evinin (KOB evi) təşkili istiqamətində tədbirlər davam etdirilir.

KOBİA-nın təşkilatçılığı ilə mikro, kiçik və orta sahibkarların maarifləndirilməsi üçün Bakıda və ölkə regionlarında təlim, seminar və treninqlər keçirilir. Bu ilin birinci yarısında vergi, gömrük, qida təhlükəsizliyi, kommunal xidmətlərə qoşulma və maliyyə resurslarına çıxış imkanlarına dair təşkil olunmuş onlayn maarifləndirmə tədbirlərindən 1500-dən çox sahibkar yararlanıb. Agentlik tərəfindən KOB-ların müxtəlif tədbirlərdə iştirakına, məhsul və xidmətlərini tanıtmasına və satışına, işgüzar əlaqələrinin genişləndirilməsinə dəstək göstərilməsi məqsədilə Bakıda və ölkə regionlarında təşkil olunmuş 5 böyük sərgi və festivalda mikro və kiçik sahibkarların iştirakı təmin edilib. Şahin Mustafayev Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına güzəştli kredit almaq istəyən və alan sahibkarların KOBİA-nın informasiya, məsləhət, maarifləndirmə xidmətlərindən daha çox istifadə etməsinin və bu sahədə birgə əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırıb.

İclasda Prezident İlham Əliyevin iş yerlərinin yaradılması prosesinin davam etdirilməsi barədə tapşırıqlarına uyğun olaraq, özəl sektorda daha çox iş yerlərinin açılmasının stimullaşdırılması barədə müvafiq struktur bölmələrə konkret göstərişlər verilib.

İdxaldan asılılığın azaldılması, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və qeyri-neft məhsulları ixracının genişləndirilməsinin dövlət başçısının sosial-iqtisadi siyasətinin prioritetlərindən olduğunu vurğulayan Şahin Mustafayev qeyd edib ki, hazırda İqtisadiyyat Nazirliyi tərəfindən dövlət başçısının qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı müvafiq fərman və sərəncamından irəli gələn tapşırıqların icrası istiqamətində tədbirlər, yerli məhsulların ixracının, rəqabətədavamlı və ixrac potensiallı məhsullar bazasının genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

İxracın stimullaşdırılmasında xüsusi əhəmiyyət kəsb edən ixrac təşviqi mexanizmi çərçivəsində bu ilin ilk 6 ayında ixracatçılara 5 milyon manatdan artıq, ümumilikdə isə 2016-cı ilin mart ayından bugünədək 14 milyon manatdan çox ixrac təşviqi ödənilib.

2019-cu ilin birinci yarısında dövlət dəstəyi hesabına xarici ölkələrə 6 ixrac missiyası təşkil edilib, Azərbaycan şirkətləri 7 beynəlxalq sərgidə vahid ölkə stendi ilə iştirak ediblər. Kollegiya iclasında vurğulanıb ki, ixracla məşğul olan sahibkarlara dəstək tədbirləri davam etdiriləcək.

Bildirilib ki, Prezident İlham Əliyevin müvafiq fərmanı ilə müəyyən edilmiş dövlət orqanlarında daxili idarəetmə proseslərinin elektronlaşdırılması barədə tapşırıqlara uyğun olaraq, İqtisadiyyat Nazirliyi tərəfindən dövlət xidmətlərinin elektron qaydada göstərilməsi və mövcud dövlət xidmətlərinin elektronlaşdırılması ilə bu sahədə şəffaflığın və operativliyin daim diqqətdə saxlanılması təmin edilir. Nazirlik tərəfindən vətəndaşlara 66 elektron xidmət göstərilir və bunların böyük əksəriyyəti artıq "E-hökumət" portalına (www.e-gov.az) inteqrasiya olunub. Hazırda digər elektron xidmətlərin "E-hökumət" portalına inteqrasiya olunması istiqamətində tədbirlər görülür. Dövlət başçısının Azərbaycanın innovasiyalar, müasir idarəetmə yolu ilə inkişafını qarşıya məqsəd kimi qoyduğunu vurğulayan Şahin Mustafayev İqtisadiyyat Nazirliyinin fəaliyyətində müasir informasiya texnologiyalarının və mobil həllərin tətbiqinin daha da genişləndirilməsi barədə müvafiq strukturlara tapşırıqlar verib.

Kollegiyanın sədri Şahin Mustafayev Prezident İlham Əliyevin yanında keçirilmiş sosial-iqtisadi sahə ilə bağlı müşavirədə dövlət başçısının çıxışından irəli gələn və İqtisadiyyat Nazirliyi qarşısında qoyulmuş vəzifələrin vaxtında və yüksək səviyyədə icrası üçün nazirliyin struktur bölmələrinə konkret tapşırıqlar verib, bu vəzifələrin icrası ilə bağlı Tədbirlər Planının hazırlanması qərara alınıb.

Kollegiya iclasında Prezident İlham Əliyevin sərəncamları ilə təltif olunmuş nazirliyin bir qrup əməkdaşına orden, medallar və onların vəsiqələri təqdim edilib.

İqtisadiyyat naziri Şahin Mustafayev verilən yüksək qiymətə görə nazirliyin kollektivi adından dövlət başçısına dərin minnətdarlığını bildirərək, onlara göstərilən etimadı daim doğruldacaqlarını qeyd edib.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Heydər Əliyev Fondu tərəfindən aztəminatlı ailələr üçün qurban sovqatları paylanılıb









Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Qurban bayramı münasibətilə aztəminatlı ailələrə qurban sovqatları paylanılıb.

Qeyd edək ki, avqustun 11-dən etibarən başlayan və Bakının rayonları, eləcə də respublikanın bütün regionlarını əhatə edən layihə zamanı 70 minə yaxın aztəminatlı ailənin bayramı təbrik edilib, onlara qurban payları verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun əməkdaşları və fondun "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri avqustun 13-də Bakı şəhərində, Füzuli, Beyləqan, Goranboy və digər rayonlarda ünvanlı sosial yardım alan növbəti ailələrə baş çəkib və fondun adından qurban payları çatdırıblar.

Qeyd edək ki, bayram ərəfəsində ətlik cins heyvanlar xüsusi ət kəsimi yerlərində kəsilərək aztəminatlı ailələrin hər biri üçün qablaşdırılıb və 3 gün ərzində paylanılıb.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bu layihə aztəminatlı ailələr üzrə dövlət siyasətinə töhfə vermək məqsədi daşıyır.

# Aztəminatlı ailələrə qurban payı verilib





Ölkənin hər yerində olduğu kimi, Ağstafa rayonunda da Qurban bayramı ruh yüksəkliyi ilə qeyd edilmişdir. Bu münasibətlə keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev çıxış edərək həmrəylik və mənəvi saflıq kimi yüksək dəyərləri özündə birləşdirən Qurban bayramı münasibətilə ağstafalıları təbrik etdikdən sonra qurbanlar kəsilmişdir.

Qeyd edək ki, üç gün davam edən bayramda müxtəlif xeyriyyə tədbirləri keçirilmiş, aztəminatlı ailələrə və məcburi köçkünlərə, şəhid ailələrinə, ümumilikdə 1000-dən çox ailəyə qurban əti və ərzaq məhsullarından ibarət sovqat paylanmışdır.

Qurban bayramında ömrünün ahıl çağlarını yaşayan uzunömürlülər də yad edilmişdir. Rayon icra hakimiyyətinin bir qrup işçisi onların evlərinə getmiş, onlara bayram payı verərək can sağlığı arzulamışlar.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda daha 2 ictimai çimərlik yaradıldı








Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın nəcib təşəbbüsü ilə Bakı şəhərində ictimai çimərliklərin yaradılması işləri davam edir.

Paytaxt sakinlərinin və eləcə də şəhərin çoxsaylı qonaqlarının istək və arzuları, onların IDEA İctimai Birliyinə müraciətləri nəzərə alınaraq birliyin təsisçisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olaraq ictimai çimərliklər yaradılır.

Səbail rayonunun "Şıx" çimərlik ərazısındə yaradılan çimərlikdən sonra artıq Buzovna və Goradil qəsəbələrində də növbəti çimərliklər yaradılaraq vətəndaşların istifadəsinə verilmişdir. Əvvəllər baxımsız vəziyyətdə olan ərazilər təmizlənərək abadlaşdırılmış, tələbata uyğun sayda kölgəlik, soyunub-geyinmə kabinələri, duş, sanitariya qovşaqları, söhbətgahlar quraşdırılmış, futbol və voleybol meydançaları yaradılmış, dəniz kənarına uzanan yola asfalt çəkilmiş, avtomobil dayanacağı yaradılaraq asfaltlaşdırılmışdır.

Vətəndaşların istirahətinin təşkili üçün çimərliklərin ərazisinə kifayət qədər oturacaq və qamaklar qoyulub, ərazi boyunca zibil konteynerləri düzülüb, əlavə abadlıq işləri görülüb.

Yaxın günlərdə daha 4 qəsəbədə də yeni ictimai çimərlik istifadəyə veriləcək. Ümumilikdə isə paytaxtın dənizkənarı ərazilərində 7 yerdə belə çimərliklərin yaradılması nəzərdə tutulmuşdur.

Yaradılan ictimai çimərliklərə giriş və digər xidmətlərdən istifadə pulsuzdur. Ərazinin təmizliyinin lazımi səviyyədə saxlanılması üçün xidmət personalı fəaliyyət göstərəcəkdir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Ermənistan tərəfinin məsuliyyətsiz ritorikası münaqişənin sülh yolu ilə həllinə yönələn bütün səyləri heçə endirə bilər

Zöhrab Mnatsakanyan Nikol Paşinyanın Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərində səsləndirdiyi absurd bəyanatı bir daha təkrarlaması, əslində, onu beynəlxalq birlik, xüsusilə də ATƏT-in Minsk qrupu həmsədrləri qarşısında pis vəziyyətə salır.

Həqiqətən də, bu cür məsuliyyətsiz ritorika nəinki beynəlxalq hüquqa və beynəlxalq vasitəçilərin mövqeyinə tamamilə ziddir, eyni zamanda, münaqişənin sülh yolu ilə tənzimlənməsinə yönələn bütün səyləri heçə endirə bilər. Ermənistan tərəfinin əsl simasının üzə çıxması və maskalarının atılması danışıqlar prosesinin pozulmasına yönələn Ermənistan hökumətinin rəsmi mövqeyinə beynəlxalq təsisatların diqqətinin cəlb edilməsi üçün ciddi əsas təşkil edir.

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva deyib.

"Bu gün Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan bu ölkənin Dağlıq Qarabağın mənsubiyyəti ilə bağlı rəsmi mövqeyi nədir sualını şərh edərək, baş nazir Nikol Paşinyanın təxribatçı ifadəsini təkrarlamaqdan başqa bir şey qeyd etmədi. Bununla əlaqədar nə deyə bilərsiniz?" sualını cavablandıran XİN rəsmisi qeyd edib ki, Azərbaycanın Xarici İşlər Nazirliyi BMT və ATƏT-in Baş katiblərinə, habelə ATƏT-in Minsk qrupunun həmsədrlərinə və bu qrupun digər üzv ölkələrinin Xarici İşlər nazirlərinə məktublar ünvanlayaraq N.Paşinyanın bəyanatları səbəbindən meydana gələn təhlükəli vəziyyətlə bağlı artıq mövqe bildirib.

Leyla Abdullayeva diqqətə çatdırıb ki, Azərbaycan tərəfi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasının, habelə Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin işğalının ağır nəticələrini xatırladaraq Ermənistan baş nazirinin son bəyanatlarını vəziyyətin daha da gərginləşməsinə gətirən "qırmızı xəttin" aşılması kimi qiymətləndirir.

"Biz Ermənistan tərəfinə ATƏM Nazirlər Şurasının 1992-ci il 24 mart tarixli qərarı, həmçinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin mandatı ilə diqqətlə tanış olmalarını israrla tövsiyə edirik. Bu sənədlərdə münaqişənin sülh yolu ilə tənzimlənməsinə nail olmaq üçün lazımi tədbirlər dəqiq təsbit olunur. Münaqişənin sülh yolu ilə həlli silahlı təcavüzün nəticələrinin tanınmasına əsaslanmamalı, əksinə - BMT Nizamnaməsinə, Helsinki Yekun Aktının müddəalarına, BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qərarları üzərində qurulmalıdır. Sonda Şərqdə işlədilən bir atalar sözünü xatırlatmaq istərdim: "Halva, halva deməklə ağız şirin olmaz!" - deyə Azərbaycan XİN-in rəsmisi qeyd edib.

# İŞİMİZ, GÜZƏRANIMIZ




## 25 ildir Azərbaycana xidmət edən layihə

### "Əsrin müqaviləsi" bundan sonra da ölkəmizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev bu barədə belə demişdir: "Mən o dövrü çox yaxşı xatırlayıram. Həmin illərdə Azərbaycana sərmayə qoymaq istəyən şirkətlərin sayı o qədər də çox deyildi. Çünki Azərbaycan dünyada riskli bir ölkə kimi tanınırdı və əlbəttə, buraya böyük həcmdə kapital qoyuluşunun cəlb edilməsi çoxlu səylər, siyasi məharət, uzaqgörənlik tələb edirdi. Bütün bu məsələlər öz həllini tapdı. "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin neft strategiyasının başlanması demək idi. Məhz onun uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, cəsarəti sayəsində bu müqavilə imzalandı. Xatırlayırsınızsa, buna həm ölkə daxilində, həm də xaricdə çox ciddi müqavimət var idi. Amma bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan öz istəyinə nail oldu. Neft müqaviləsi imzalandı və Azərbaycana böyük həcmdə xarici sərmayənin gətirilməsi təmin edildi".

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanan vaxt Azərbaycanın neft sənayesinin əsr yarımdan çox tarixi var idi. Bəs nə üçün dünyada çıxarılan neftin əhəmiyyətli hissəsini verən Azərbaycan öz sərvətlərinin sahibi ola bilməmiş, neft-qaz mərkəzlərindən biri kimi layiq olduğu şan-şöhrətə çatmamışdı?

Bu yalnız Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra mümkün oldu. Ümummilli Lider Heydər Əliyev bunu belə izah etmişdir: "Birincisi, Azərbaycan öz dövlət müstəqilliyini əldə etmişdir və dünya birliyində özünə yer tutan müstəqil dövlət kimi təbii sərvətlərinin sahibi olmuşdur, onlardan istifadə edilməsi üçün lazımi yeni tədbirlər görməyə başlamışdır. İkincisi ondan ibarətdir ki, müstəqil Azərbaycan, onun dövləti öz iqtisadiyyatını inkişaf etdirmək və böyük təbii sərvətlərindən, xüsusən neft və qaz sərvətlərindən istifadə etmək üçün yeni neft strategiyası işləyib hazırlamış və onu həyata keçirməyə başlamışdır".

Müəllifi Ulu Öndər Heydər Əliyev olan yeni neft strategiyası Azərbaycanın müasir tarixində müstəsna rol oynadı. "Əsrin müqaviləsi" ölkəmiz üçün beynəlxalq inteqrasiyanın başlanğıcı oldu və iqtisadiyyatın uzunmüddətli inkişaf istiqamətlərini müəyyən etdi. O vaxtdan bəri Azərbaycanın təşəbbüsü ilə regionda neft-qaz, habelə infrastruktur sahəsində bir sıra transmilli layihələr həyata keçirilib. Zəngin enerji mənbələrinə və tranzit imkanlarına malik olan ölkə kimi Azərbaycan regional əməkdaşlıq məsələlərində konstruktiv rol oynayaraq bütün dünyanın tanıdığı etibarlı tərəfdaşa çevrilib. İndiyədək neft-qaz sektorunda aparılan şaxələndirmə siyasəti, həmçinin mövcud boru kəmərləri şəbəkəsi dünyada enerji təhlükəsizliyinin təmin olunması işinə öz layiqli töhfəsini verir.

Xatırladaq ki, AÇG yataqları üzrə saziş 30 illik müddət üçün imzalanmışdı. Bu saziş çərçivəsində ilkin neft 1997-ci ilin noyabr ayında "Çıraq" platformasından çıxarıldı. 2005-ci ilin fevralında "Azəri" yatağının mərkəzi, 2006-cı ilin ilk günlərində qərb və həmin ilin sonunda şərq hissəsi neft verdi. "Dərinsulu Günəşli" yatağı 2008-ci ilin yazından istismar olunur. 2014-cü ilin yanvar ayından "Qərbi Çıraq"dan da neft hasil edilir.

Lakin zaman AÇG yataqlarının imkanlarının daha geniş olduğunu göstərdi. Bu imkanları üzə çıxarmaq üçün 2017-ci ilin sentyabrında "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilin əvvəllərinədək uzadıldı. Bu saziş "Yeni əsrin müqaviləsi" adlandırıldı.

AÇG Azərbaycana gəlir gətirməkdə davam edir. 1997-ci ilin sonundan 2018-ci ilin sonunadək bu yataqlardan hasil edilən neftin həcmi 3,5 milyard barel olub. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri 2006-cı ildə tam sistem kimi istifadəyə verilərək Azərbaycan neftini dünya bazarlarına çıxarır.

Bu il mayın 29-da 26-cı Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışındakı nitqində Prezident İlham Əliyevin dediyi kimi: "Dövlət Neft Fondunun yaradılması və Dövlət Neft Fondunun xətti ilə ən vacib məsələlərin həlli - bu da uğurlu neft siyasətimizin nəticəsində olmuşdur. Yüzdən çox köçkün şəhərciyi Dövlət Neft Fondunun xətti ilə inşa edilmişdir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastruktur layihələrinə investisiya qoyuluşu da məhz bu layihələrlə bağlıdır... Həm yol tikintisi, həm qazlaşdırma, həm də elektrik enerjisi ilə bağlı olan məsələlər Azərbaycanda uğurla icra edilir. Biz neftdən əldə edilən gəlirləri qeyri-neft sektorunun inkişafına, insan kapitalına qoymağa başlamışıq. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağının tikilməsi, yenilən infrastruktur, sosial layihələrin, vətəndaşların sosial problemlərinin həlli - bütün bunların təməlində bizim uğurlu neft siyasətimiz dayanır. Bu gün isə ölkə qarşısında duran əsas vəzifə neft-qaz amilindən asılılığı azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirməkdir".

"Əsrin müqaviləsi"ndən başlanan yollar uğurla davam edir. Keçən il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi olmuş, növbəti ayda isə TANAP (Transanadolu Qaz Boru Kəməri) istifadəyə verilmişdir. Bu layihələrin icrası Azərbaycanın enerji strategiyasının ən yaddaqalan hadisələrindəndir. Çünki onlar Azərbaycanın iqtisadi qüdrətini və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolunu əyani şəkildə nümayiş etdirmişdir. Artıq TAP-ın (Transadriatik Qaz Boru Kəməri) da çəkilişi başa çatmaq üzrədir. Gələn il bu kəmər TANAP-dan qəbul etdiyi Azərbaycan qazını Avropaya çatdıracaq. Bununla da "Cənub qaz dəhlizi" layihəsi tamamlanacaq.

Bütün bunların sayəsində indi Azərbaycan iri həcmdə neft və qaz ixrac edən ölkələr sırasında layiqli yer tutur. Sürətli sosial-iqtisadi yüksəliş dövrünü yaşayan ölkəmizin dinamik inkişafı nəticəsində əldə edilən nailiyyətlər milli iqtisadiyyatı şaxələndirməklə bütün sahələrdə, o cümlədən qeyri-neft sektorunda əsaslı irəliləyişə gətirib çıxarmışdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İki yeni sağlamlıq mərkəzi inşa edilir

*Əvvəli 1-ci səh.*

Rusiya Federasiyasından, Özbəkistandan, Türkmənistandan, Qazaxıstandan, Qırğızıstandan, Ukraynadan, Latviyadan, həmçinin Almaniyadan, Türkiyədən, Kanadadan, İsraildən, Polşadan, Fransadan, İspaniyadan, İtaliyadan, Yaponiyadan, Çindən, Birləşmiş Ərəb Əmirliyindən və digər ölkələrdən minlərlə turist gəlmişdir.

Dövlət başçısının diqqət və qayğısı ilə Naftalanda böyük infrastruktur layihələri həyata keçirilmiş, insanların istirahəti və müalicəsi üçün hər cür şərait yaradılmışdır. Bu yaxınlarda isə burada daha 2 müasir sağlamlıq-istirahət mərkəzinin inşasına başlanılmışdır. Onlardan biri Nizami küçəsində inşa edilən 4 mərtəbəli, 288 yerlik "Gold Naftalan" sağlamlıq və istirahət mərkəzidir.

İkinci sağlamlıq və istirahət mərkəzi isə "Naftalan Hotel & SPA" adlanır. Burada da inşaat işləri sürətlə davam etdirilir. 10 mərtəbəli binada artıq son tamamlama işləri görülür. Hotelin inşasında 35 nəfər çalışır. Sağlamlıq mərkəzində ginekoloq, dermatoloq, UZİ, uroloq, kardioloq, analiz laboratoriyası, inqalyasiya otağı, ozon terapiya və digər şöbələr turistlərə xidmət göstərəcəkdir. Hotelin ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Fındıq istehsalı sahəsində strateji əməkdaşlıq bəyannaməsi imzalanıb

Azərbaycan, Türkiyə və Gürcüstan fındıq istehsalı sahəsində əməkdaşlıq edəcəklər. Bununla əlaqədar olaraq sənəd imzalanıb. AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Kənd Təsərrüfatı və Ətraf Mühitin Mühafizəsi Nazirliyi məlumat yayıb.



Məlumatda deyilir ki, Türkiyənin Ordu şəhərində üç ölkənin kənd təsərrüfatı nazirləri strateji əməkdaşlıq haqqında bəyannamə imzalayıblar. Sənədə əsasən, Türkiyə, Azərbaycan və Gürcüstan fındıq istehsalı sahəsində daha fəal əməkdaşlıq edəcəklər.

Nazirlikdən bildirilib ki, fındıq hər üç ölkənin əsas ixrac kənd təsərrüfatı məhsuludur. Üçtərəfli əməkdaşlıq formatının məqsədi fındıq məhsulunun istehsalı və keyfiyyətini yaxşılaşdırmaq, məhsuldarlığın artırılması üçün elmi potensialdan maksimum istifadə etmək və texniki əməkdaşlığı təmin etməkdir.

Nazirlər bu istiqamətlər üzrə əməkdaşlığı razılaşdırıblar. Əməkdaşlıq fındıq istehsalı sahəsinin inkişafı və istehsalın artırılmasına yönəlib.

Nazirlikdən onu da bildiriblər ki, fındıq məhsulu uzun illərdir Gürcüstanın mal ixracında əsas yerlərdən birini tutub. Lakin mərmər böcəyi və göbələk xəstəlikləri səbəbindən 2017-ci ildə fındıq ixracı 2016-cı illə müqayisədə 54,1 faiz azalıb. 2018-ci ildə isə azalma 30,5 faiz olub.

Gürcüstan hökuməti ölkədə fındıq istehsalını artırmaq üçün gələn ildən müvafiq tədbirlər görəcək.

## Türkiyə ilə Azərbaycan arasında birbaşa hava dəhlizi açılır

Bu barədə Türkiyənin Dövlət Hava Meydanları İdarəsinin rəhbəri Hüseyin Keskin məlumat verib.

Bildirib ki, bu istiqamətdə davam edən danışıqlar artıq yekunlaşıb. Beynəlxalq Mülki Aviasiya Təşkilatı ilə əldə olunan yeni razılığa əsasən açılacaq bu hava dəhlizi vasitəsilə Türkiyədə yerləşən hava limanları ilə Azərbaycanın Naxçıvan Beynəlxalq Hava Limanı arasında birbaşa uçuşlar həyata keçiriləcək. Uçuşların avqustun 15-dən etibarən başlaması planlaşdırılır.

Hüseyin Keskin hazırda bu reyslərin həyata keçirilməsi üçün İran və Ermənistanın hava sahələrindən istifadə olunduğunu qeyd edib.

Bildirilib ki, yeni dəhlizin istifadəsi həm vaxtı qısaldacaq, həm də yanacağa qənaət baxımından daha əlverişlidir.

## 7 ayda dəmir yolu ilə 1,7 milyard dollarlıq yük daşınıb



Cari ilin yanvar-iyul aylarında dəmir yolu ilə ümumilikdə 3 milyon 854 min 826 ton yük daşınıb. Yüklərin dəyəri 1 milyard 762,4 milyon dollar olub.

Dövlət Gömrük Komitəsinin bu barədə yaydığı məlumatda bildirilir ki, 7 ayda dəmir yolu ilə ixrac olunan 1,3 milyon ton yükün dəyəri 441,2 milyon dolları ötüb. Bu dövrdə dəmir yolu ilə idxal edilən 2,5 milyon ton yüklərin dəyəri isə 1,3 milyard dollardan çox olub.

## Soçidə üç qonşu ölkənin rabitəçiləri arasında görüş keçirilib

Rusiya Federasiyasının Nəqliyyat naziri Yevgeni Ditrixin dəvəti ilə AR Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin rəhbərlik etdiyi nümayəndə heyəti Soçi şəhərində səfərdədir. Ölkəmizin nümayəndə heyəti Azərbaycan, İran və Rusiyanın nəqliyyat nazirlərinin üçtərəfli görüşündə iştirak edib.

Görüşdə "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi"nin Xəzər dənizinin qərb sahillərindən keçən marşrutu ilə beynəlxalq yük daşımalarının həcminin artırılması, daşımaların asanlaşdırılması və bu sahədə müqavilə-hüquq bazasının inkişafı istiqamətində görüləcək birgə tədbirlər müzakirə olunub.

Səfər çərçivəsində nazir Ramin Quluzadə ilə rusiyalı həmkarı Yevgeni Ditrix, İran İslam Respublikasının Yollar və Şəhərsalma naziri Məhəmməd Eslami arasında keçirilmiş ikitərəfli görüşlərdə nəqliyyat və tranzit daşımalar sahəsində qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

## Azərbaycan üzərindən daşınan yüklərin həcmi artır




Cari ilin 6 ayında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 25 milyon 141,6 min ton, yük dövriyyəsi isə 5 milyard 301 milyon ton-km olmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, yüklərin 16 milyon 330,4 min tonu və ya 65 faizi avtomobil, 6 milyon 265,2 min tonu (24,9 faizi) dəmir yolu, 2 milyon 546 min tonu (10,1 faizi) dəniz nəqliyyatı ilə daşınmışdır. Dəhliz vasitəsilə daşınmış yüklərin 16,1 faizini (4 milyon 56,5 min tonunu) tranzit yüklər təşkil etmişdir.

## İlin əvvəlindən 179 bina qazlaşdırılıb

"Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Prezidentin 2019-cu il 19 fevral tarixli fərmanına uyğun olaraq, "Azəriqaz" İB operativ tədbirlər görür.

Qurumun yaydığı məlumata görə, 7 ay ərzində 179 binada 11 min 786, ötən ay isə 35 binada 3 min 72 mənzil qazla təmin olunub. Bu işlərin icrası çərçivəsində İB-nin əməkdaşları qazla təmin olunmayan və ya natamam təmin edilən yaşayış binalarının tikinti şirkətləri ilə mütəmadi görüşlər keçirib, yaranmış problemlərin aradan qaldırılması üçün lazımi köməyin göstərilməsi istiqamətində müvafiq təkliflər veriblər.

## İstehlak bazarında ucuzlaşma var

Cari ilin yanvar-iyul aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2018-ci ilin müvafiq dövrünə nisbətən 2,7, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları 3,1, qeyri-ərzaq malları 1,3, əhaliyə göstərilən ödənişli xidmətlər 3 faiz bahalaşıb.



Bu barədə Dövlət Statistika Komitəsinin açıqlamasında daha sonra bildirilir ki, cari ilin iyul ayında iyun ayına nisbətən istehlak məhsulları və xidmətlər 0,1, o cümlədən qeyri-ərzaq malları 0,2, əhaliyə göstərilən ödənişli xidmətlər 0,1 faiz bahalaşmış, ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri isə sabit qalmışdır.

Ay ərzində uzun düyünün, unun, vermişelin, toyuq ətinin, suda bişmiş kolbasanın, sosiskanın, sterilizə olunmuş üzlü südün, şəkərli qatılaşdırılmış südün, tərkibində qursaq mayası olan bərk və yumşaq pendirin, kəsmiyin, yumurtanın, günəbaxan və qarğıdalı yağlarının, bananın, armudun, gavalının, əriyin, şaftalının, qarpız və yemişin, üzümün, bibərin, badımcanın, göy lobyanın, çuğundurun, yerkökünün, sarımsağın, kartofun, quru noxudun, mərcinin, şəkər və şəkər tozunun, çay və kakao tozunun, dondurmanın, mineral suların, limonadın, energetik içkilərin qiymətlərində ucuzlaşma, yumru düyünün, spagettinin, mal və qoyun ətinin, hisə verilmiş və yarım hisə verilmiş kolbasanın, konservləşdirilmiş mal ətinin, təzə balığın, pasterizə olunmamış üzlü südün, qatığın, brınza pendirinin, kərə yağının, limonun, almanın, albalı və gilasın, çiyələyin, kələmin, pomidorun, xiyarın, soğanın, kola içkisi və pivənin qiymətlərində isə bahalaşma müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Qeyri-ərzaq mallarından isə parçaların, mebel və ev əşyalarının, xalça və digər döşəmə örtüklərinin, velosipedlərin, dəftərxana ləvazimatlarının, minik avtomobilləri üçün ehtiyat hissələrinin, yağlı və sulu boyaların, divar kağızlarının, kəsilmiş taxtanın, parketin, paltaryuyan maşınların, kondisionerlərin, ventilyatorların, fotoaparatların, planşet tipli kompüterlərin, zərgərlik məmulatlarının qiymətlərində artma, mikrodalğalı sobaların, televizorların, mobil telefonların, noutbukların, saç üçün şampun və boyaların, dezodorantların, toz şəklində sintetik yuyucu vasitələrin qiymətlərində isə enmə qeydə alınmışdır. Digər qeyri-ərzaq mallarının qiymətlərində ciddi dəyişikliklər olmamışdır.

Ötən ay iyuna nisbətən əhaliyə göstərilən ödənişli xidmətlərdən məişət cihazlarının, avtomobillərin və ayaqqabıların təmiri, dəmir yolu nəqliyyatı ilə MDB ölkələrinə və hava nəqliyyatı ilə MDB ölkələri istisna olmaqla digər ölkələrə beynəlxalq sərnişindaşıma xidmətlərinin, hotel və mehmanxanalar tərəfindən göstərilən gecələmə xidmətlərinin, ödənişli ali təhsil haqlarının və istirahət turlarının qiymətləri bahalaşmış, hava nəqliyyatı ilə MDB ölkələrinə sərnişindaşıma xidmətlərinin qiymətləri isə ucuzlaşmışdır. Digər ödənişli xidmətlərin qiymətləri sabit qalmışdır.

## Qurbanlıq kəsim və satışı aparılan yerlərdə dezinfeksiya işlərinə başlanılıb

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin mütəxəssisləri tərəfindən Qurban bayramı ilə əlaqədar paytaxt və bölgələrdə qurbanlıq heyvanların satışına icazə verilmiş yerlərdə dezinfeksiya tədbirinə başlanılıb.



Profilaktik dezinfeksiya tədbiri müvafiq qurumlar tərəfindən müəyyən edilmiş diri heyvanların satışının aparılması nəzərdə tutulan yerlərdə ödənişsiz əsaslarla icra olunur. Tədbirlər obyekt sahibləri tərəfindən ərazidə mexaniki təmizlik aparıldıqdan sonra həyata keçirilir.

Dezinfeksiya işində kimyəvi məhlullar əraziyə xüsusi maşınlarla güclü axın şəklində səpilir, mexaniki dezinfeksiyaedici qurğulardan istifadə edilməklə aparılır. Obyektlər dezinfeksiya tədbirlərindən sonra təsərrüfat sahiblərinin istifadəsinə verilir, bununla da heyvan satışı üçün ərazilərin baytarlıq-sanitariya cəhətdən yararlığı təmin olunur.

Dezinfeksiya işlərinin avqustun 16-da yekunlaşması nəzərdə tutulur.

# "Azərenerji" ASC "Mingəçevir" SES-də təmir-bərpa işləri aparır

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti "Reabilitasiya Proqramı" çərçivəsində Mingəçevir şəhərində yerləşən "Azərbaycan" İstilik Elektrik Stansiyası ilə yanaşı, "Mingəçevir" Su Elektrik Stansiyasında da təmir-bərpa işləri həyata keçirir. 6 hidroaqreqatdan ibarət stansiyanın 4 hidroaqreqatında təmir və bərpa işləri aparılmağa ehtiyac var idi. Elə bu səbəbdən 2017-ci ildən fəaliyyəti dayanan 6 saylı hidroaqreqatda təmir-bərpa işlərinə start verilib və sifariş əsasında gətirilən ehtiyat hissələri quraşdırılır. Müasir tipli idarəetmə sisteminə qoşulacaq 6 saylı hidroaqreqatda işlər avqust ayının sonunda tamamlanacaq və ardınca digər 3 hidroaqreqatda da analoji işlər həyata keçiriləcək. Bu günə qədər "Reabilitasiya Proqramı" çərçivəsində "Mingəçevir" SES-də gərginliyi 220/110 kilovolt, gücü 200 meqavolt amper olan əlavə avtotransformator quraşdırılıb, 320 metr məsafədə 220 kilovoltluq yeraltı kabel xətti, Kür çayının üstü ilə keçməklə 300 metr məsafədə 110 kilovoltluq yüksəkgərginlikli hava xətti çəkilib. Eyni zamanda avtotransformator yeni müasir tipli rele mühafizəsi və avtomatikası sistemi ilə təmin edilib.



Qeyd edək ki, 4 ildən artıq idi ki, 220/110 kV-luq həsəsinə əlavə avtotransformator qoşulmadığından birinci avtotransformator fasiləsiz işləyir, bununla qəza riski artır, eyni zamanda onun üzərində əsaslı təmir və bərpa işləri aparmaq mümkün olmurdu. İndi isə yükü digər avtotransformatorun üstünə keçirməklə istənilən təmir işini həyata keçirməklə və fasiləsizliyi təmin etməklə, Mingəçevir və ətraf regionlarda elektrik enerjisinin keyfiyyəti yüksəldilib.

"Reabilitasiya Proqramı" çərçivəsində "Mingəçevir" SES-də aparılan təmir-bərpa işləri 2020-ci ildə tamamlanacaq və bununla stansiyanın dayanıqlılığı və etibarlılığı artırılmaqla "itirilmiş" güc bərpa olunacaq.

***"Azərbaycan"***

# İstedadların Rəqəmsal Sponsoru "Azercell" Olimpiadanın qaliblərini mükafatlandırdı

Azərbaycanın lider mobil operatoru "Azercell"-in İstedadların Rəqəmsal Sponsoru qismində çıxış etdiyi 4-11 avqust tarixlərində Bakı şəhərində keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadası iştirakçıların qızğın mübarizələrindən sonra başa çatdı.



Azərbaycan komandası da daxil olmaqla, 88 ölkədən 600-dən çox şagird, müəllim və ekspertin qatıldığı Olimpiadanın qalibləri 10 avqust tarixində Heydər Əliyev Mərkəzində keçirilən rəsmi bağlanış mərasimində açıqlandı. Belə ki, 1-ci yerin sahibi ABŞ-ı təmsil edən Benjamin Qi, 2-ci yerin sahibi Rusiyanı təmsil edən İldar Gainullin, 3-cu yerin sahibi isə Kanadanı təmsil edən Zixiang Zhou adlı iştirakçı olub. Qeyd edək ki, Benjamin Qi ötən il Yaponiyanın Tsukuba şəhərində keçirilən olimpiadanın da qalibi olub. Azərbaycanı təmsil edən iştirakçılara gəlincə, Murad Eynizadə və Abutalıb Namazov ən yaxşı göstəricilər nümayiş etdirərək 232 reytinq xalı ilə Olimpiada cədvəlində öz yerlərini tutublar. Rəsmi mərasimdə "Azercell Telekom"-un prezidenti Vahid Mürsəliyev, digər təşkilati qurum və sponsorların rəhbərləri iştirak edib, qalibləri təntənəli şəkildə medalla təltif ediblər.

Beynəlxalq İnformatika Olimpiadası Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşəbbüsü, ADA Universiteti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və digər dövlət qurumlarının dəstəyi ilə keçirildi. Əlavə olaraq Olimpiadanın rəsmi Qlobal Sponsoru qismində "Acer" şirkəti və İstedad Sponsoru qismində PAŞA Bank çıxış edib.

Xatırladaq ki, 2017-ci ildən etibarən "Azercell" şirkəti Təhsil Nazirliyi ilə birgə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi vasitəsilə azərbaycanlı olimpiadaçılar üçün xüsusi hazırlıq məşğələlərinin təşkilində iştirak edir. İstedadların Rəqəmsal Sponsoru olmaqla yanaşı, "Azercell" şirkəti həm də yarışmaçılar və onları müşayiət edən heyəti Azərbaycanda olduqları müddət ərzində mobil internet və xüsusi hədiyyələrlə də təmin edib.

***"Azərbaycan"***

# Beynəlxalq aləm

## Tramp DTT-dən çıxmaqla hədələyir



ABŞ Prezidenti Donald Tramp bildirmişdir ki, Vaşinqton Dünya Ticarət Təşkilatının (DTT) tərkibindən çıxa bilər. O, bu bəyanatı Monaka şəhərində (Pensilvaniya ştatı) "Shell" Britaniya-Niderland konserninin neft-kimya kompleksinin fəhlələri qarşısında çıxış edərkən səsləndirmişdir.

Ağ evin başçısı qeyd etmişdir ki, "biz məcbur olsaq, çıxarıq". Trampın dediyinə görə, "bilirik ki, onlar neçə illərdir bizi aldadırlar, amma belə bir şey bundan sonra təkrarlanmayacaq". Əvvəllər Tramp mənzil-qərargahı Cenevrədə yerləşən DTT-ni dəfələrlə tənqid etmişdir. Onu narazı salan belə bir faktdır ki, Çin təşkilatın tərkibində inkişaf etməkdə olan ölkə statusuna malikdir.

Bu status Çinə kənd təsərrüfatını inkişaf etdirmək üçün subsidiyalar almaq və idxalat məhsulları üçün ciddi maneələr yaratmaq imkanı verir. Tramp bu statusun qanunsuz olduğunu bəyan edir və Çini ABŞ texnologiyalarını oğurlamaqda günahlandırır.

## Norveç və İsveç bir-birini ekstremistlərlə əlbir olmaqda ittiham edirlər



İsveç Skandinaviyada ekstremist qruplaşmaların mərkəzidir və Norveç bununla mübarizə aparmalıdır. Bu bəyanatla Norveçin Baş Naziri Erna Solsberq çıxış etmişdir.

Solsberq Norveçin Berum şəhərində "əl-Nur" islam mərkəzinə hücuma görə məsuliyyəti isveçli radikalların üzərinə qoymuşdur. O, xatırlatmışdır ki, sağ ekstremist "Skandinaviya müqavimət hərəkatı" təşkilatı da İsveçdə yerləşir. Baş nazir əlavə etmişdir ki, bu qruplaşmaların üzvləri Norveçə gəlib terror aktı törətmişlər. O, vurğulamışdır ki, belə hərəkətlərin qarşısını birgə səylərlə almaq lazımdır.

Norveç Baş Nazirinin bəyanatı İsveçdə sərt reaksiya doğurmuşdur. İsveçin Energetika və İnformatika naziri Anders İgeman Tvitterdəki səhifəsində yazmışdır: "İki ölkə arasında ekstremizmlə mübarizədə işbirliyi, şübhəsiz, vacibdir. Amma siz ifrat sağçı "İnkişaf" partiyası ilə əməkdalıq etsəniz və ifrat sağçı siyasətçi Silva Listahoqu nazir təyin etsəniz, onda hər şeydən əvvəl güzgüdə özünüzə baxmaq lazımdır".

## Hindistanda sel və torpaq sürüşmələri 201 nəfərin həyatına son qoydu

Hindistanın cənub və qərb ştatlarında sel və torpaq sürüşmələri nəticəsində ölənlərin sayı 201 nəfərə çatmışdır. Bu barədə yerli KİV xəbər verir.

Ardı-arası kəsilməyən yağışların doğurduğu təbii fəlakətdən ən çox Kerala, Karnataka, Maharaştra və Qucarat ştatları ziyan çəkmişdir. Kerala ştatında 76 nəfər həlak olmuş, 50 nəfər itkin düşmüşdür. 290 min nəfərdən çox adam fəlakət zonasından köçürülmüşdür.

Maharaştrada 43 nəfər, Karnatakada 42 nəfər həlak olmuşdur. İtkin düşmüş 12 nəfəri axtarıb tapmaq üçün tədbirlər görülür. Qucarat ştatında 31 nəfər seldə boğulmuş, Uttarakhand ştatında torpaq sürüşməsi 6 nəfərin ölümü ilə nəticələnmişdir. Cəmmu və Kəşmirdə sel bir ailədən üç nəfərin ölümünə səbəb olmuşdur.


Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 20.08.2019-cu il tarixdə, gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.


## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 19 iyun 2019-cu il tarixli nömrəsində Qobustan Rayon İcra Hakimiyyəti Qobustan şəhərində istismar müddəti başa çatmış 6 ikimərtəbəli 8 mənzilli binada yaşayan sakinlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə 48 mənzilli yaşayış binasının tikintisi ilə əlaqədar elan edilmiş açıq tenderin vaxtı 28 avqust 2019-cu il tarixədək uzadılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 16 may 2019-cu il tarixdə elan edilmiş "IPTV infrastrukturunun satın alınması" ilə bağlı açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Digitsol" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Digitsol" MMC arasında 530574,02 manat məbləğində 01 avqust 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Beyləqan rayonunun Dünyamalılar kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəb binasının tikintisinin satınalınması üzrə

### *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Beyləqan rayonunun Dünyamalılar kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəb binasının tikintisinə dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 27 sentyabr 2019-cu il tarixdə saat 15:00-da Dövlət satınalmalarının vahid portalında (etender.gov.az) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak üçün portal vasitəsilə elektron elanla tanış ola və 300 (üç yüz) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 16 may 2019-cu il tarixdə elan edilmiş "1164 ədəd müxtəlif amperajlı 12V, 200 ədəd müxtəlif amperajlı 6V, 96 ədəd müxtəlif amperajlı 2V-luq stansiya tipli akkumlyatorların satın alınması" ilə bağlı açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Rovel Trading" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Rovel Trading" MMC arasında 940824,00 manat məbləğində 31 iyul 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Sumqayıt Şəhər İcra Hakimiyyəti Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi Abadlaşdırma Təmir Tikinti İdarəsi tikinti materiallarının satınalınması məqsədi ilə

### *kotirovka sorğusu elan edir*

Maraqlanan təşkilatlar (050)244-45-10; (055)258-38-58 nömrəli telefonlarla əlaqə saxlaya bilərlər.
Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər və təkliflər 15.08.2019-cu il saat 17:00-dək qəbul edilir.
Təklif zərfləri 18.08.2019-cu il saat 11:00-da açılacaqdır.

**Əlaqələndirici şəxs: Oktay Məmmədov.**
**Telefon: (055)303-35-70.**
**Ünvan: Sumqayıt şəhəri, 39-cu məhəllə, MKTİB-nin təsərrüfat sahəsi.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 16 iyun 2019-cu il tarixdə elan edilmiş "İstismarda olan avtonəqliyyat və xüsusi texniki vasitələrin təmiri və texniki qulluq xidmətinin satın alınması" ilə bağlı açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Şərq Motors" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Şərq Motors" MMC arasında 554600,00 manat məbləğində 01 avqust 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası
**RAZİYƏXANIM QULİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini Orucəli Hacıyevə əzizi
**HƏŞİMİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin sabiq hakimi
**MİRPAŞA HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Bakı Apelyasiya Məhkəməsinin sabiq hakimi
**MİRPAŞA HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Ali və Apelyasiya məhkəmələrinin sabiq hakimi
**MİRPAŞA HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazir müavini Anar Kərimova əzizi
**GÖVHƏR XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ənvər Seyidov və Azər Orucov Hüseynovlar ailəsinə əzizləri
**MİRPAŞA HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Şəhər Nəsimi Rayon Məhkəməsinin kollektivi məhkəmənin hakimi Elməddin Hüseynova atası
**MİRPAŞA HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9002
Sifariş 2683
Qiyməti 40 qəpik